# Qəbələdə Azərbaycan Polisinin 100 illik yubileyi qeyd edilib

***Azərbaycan Polisi Günü və Azərbaycan Polisinin 100 illik yubileyi münasibətilə iyulun 2-də Qəbələ Rayon Polis Şöbəsində təntənəli bayram tədbiri keçirilmişdir. Rayon icra hakimiyyəti, hüquq mühafizə orqanları rəhbərlərinin və polis şöbəsinin şəxsi heyətinin iştirak etdiyi tədbirin iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymuş, ulu öndərin əziz xatirəsinə ehtiramlarını bildirmişlər.***





Polis şöbəsində qeyd olunan təntənəli mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Daxili İşlər naziri Ramil Usubovun yubiley münasibətilə şəxsi heyyətə ünvanladığı təbrik məktubu oxunmuşdur.

Sonra rayon polis şöbəsinin rəisi, polis polkovniki Nadir Məmmədov Azərbaycan polisinin keçdiyi 100 illik şərəfli tarixi yol haqqında geniş məruzə etmişdir.

Məruzəsində Azərbaycan polisinin müstəqilliyimizin əsas dayaqlarından biri olduğunu, ölkəmizdə daxili sabitliyin təmin olunmasında mühüm rol oynadığını bildirən polis rəisi, ölkədə formalaşmış ictimai-siyasi sabitlik şəraitində respublikamızın inkişaf etdiyini, eləcə də dövlətçiliyimizin qorunması, asayişin mühafizəsi, Konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatı istiqamətində daxili işlər orqanlarının həyata keçirdiyi mühüm xidmətlərdən danışmışdır. Nadir Məmmədov hüquq-mühafizə orqanlarına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına rayon polis şöbəsinin şəxsi heyəti adından dərin minnətdarlığını bildirmiş, Azərbaycan polisinin bundan sonra da müstəqilliyimizin, dövlətçiliyimizin möhkəmləndirilməsi işinə sədaqətlə xidmət edəcəyini, vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması, ictimai asayişin qorunması istiqamətində səmərəli fəaliyyət göstərəcəyini və polis adını şərəflə qoruyacağını bildirmişdir.

Yubiley mərasimində çıxış edən rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov Azərbaycan Polisi Günü münasibətilə hüquq-mühafizə orqanlarının əməkdaşlarını təbrik etmiş, Azərbaycan polisinin ulu öndər Heydər Əliyevin dövlətçilik xəttinə, Prezident İlham Əliyevin müdrik siyasətinə həmişə sadiq qaldığını bildirmiş və bunun daxili işlər orqanlarının əməkdaşları üçün ən böyük şərəf və qürur mənbəyi olduğunu diqqətə çatdırmışdır.

Rayon prokuroru Məqsəd Orucov və təqaüddə olan polis zabiti Nadir Vəliyev çıxışlarında Azərbaycan Polisinin keçdiyi şərəfli inkişaf yolundan, dövlətçiliyimizin və ictimai asayişin qorunmasındakı rolundan söhbət açaraq şəxsi heyyəti təbrik etmişlər.

Sonda xidməti vəzifələrini yerinə yetirərkən səmərəli fəaliyyətlərinə görə fərqlənən bir sıra polis əməkdaşlarının rütbələri artırılmış, təqaüddə olanlara isə hədiyyələr təqdim edilmişdir.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Qəbələdə sosial-iqtisadi inkişafın uğurları

## 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat MƏRUZƏSİ

(Əvvəli 2-ci səhifədə).

iş yerlərində altı ay ərzində rayon üzrə Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatında 60 nəfər, Qəbələ Təmir Tikinti Şirkəti MMC-də 55 nəfər, Qəbələ Yaşıllaşdırma MMC-də 150 nəfər müvafiq işlə təmin olunmuşdur.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli, 1941 nömrəli Sərəncamının icrası ilə əlaqədar müvafiq işlər davam etdirilmiş, birinci yarımil ərzində öz bizneslərinə başlamaları üçün tələb olunan aktivlərlə təmin olunmuş 16 nəfər vətəndaşın istifadəsində olan aktivlər onların mülkiyyətinə verilmişdir. Həmin vətəndaşların 8 nəfəri ətlik-heyvandarlıqla, 4 nəfəri südlük-heyvandarlıqla, 1 nəfəri arıçılıqla, 1 nəfəri kiçik iaşə xidməti, 1 nəfəri kompüter təmiri, çap və poliqrafiya sahəsində, 1 nəfəri avtomobil təmiri sahəsində fəaliyyət göstərirlər.

Özünüməşğulluq proqramının növbəti mərhələsində iştirak etmək üçün müraciət etmiş vətəndaşlardan 235 nəfərinin müraciəti araşdırılmış, onlardan 201 nəfərinin həyətyanı sahəsinə və biznes ideyasını reallaşdırması üçün malik olduğu digər resurslara baxış keçirilmişdir. Müraciəti araşdırılmış vətəndaşlardan 60 nəfəri "Öz biznesinə başla və təkmilləşdir" təlimlərinə cəlb edilmiş, onlardan 59 nəfəri təlimləri uğurla başa vurmuşdur. Hazırda təlimləri bitirmiş vətəndaşların biznes planlarının müdafiəsinin təşkili istiqamətində işlər həyata keçirilir. Təlimləri bitirmiş vətəndaşlardan 52 nəfəri kənd təsərrüfatı, 3 nəfəri istehsal, 4 nəfəri xidmət sahəsində fəaliyyət göstərəcəkdir.

"Ərazi Məşulluq Proqramı"na uyğun olaraq 16 may 2018-ci il tarixdə aktiv məşğulluq tədbiri olan "Əmək Yarmarkası" keçirilmişdir. Yarmarkada 210 boş iş yeri təqdim edərək 34 müəssisə və təşkilat, 360 nəfər işaxtaran vətəndaş iştirak etmiş, 75 nəfərə münasib işlərə göndəriş verilmiş, onlardan 65 nəfəri işlə təmin olunmuşdur.

Rayonun yerli gəlirləri 2018-ci altı ayının yekunlarına görə 6.766,3 min manat proqnoza qarşı 7.660,8 min manat (113,2 %) və ya 894,5 min manat çox yerinə yetirilmişdir. Yerli gəlirlərə aid olan məbləğ 3.108,5 min manat proqnoza qarşı 3.520,7 min manat (113,3 %) və ya 412,2 min manat çox, yerli xərcləri 3.050,2 min manat proqnoza qarşı 2.831,3 min manat (92,8 %) və ya 218,9 min manat az icra olunmuşdur. Gəlirlərin mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 3.641,9 min manat proqnoza qarşı 4.128,1 min manat (113,3 % ) və ya 486,2 min manat çox icra olunmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 3-ü üzrə proqnoz tapşırıqlar kəsrlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 167,1 min manat az vəsait daxil olmuşdur. Digər 7 növ gəlirlər üzrə 579,3 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 412,2 min manat çox yerinə yetirilmişdir.

Yerli gəlirlər üzrə ümumilikdə daxil olmuş 7.660,8 min manat vəsitdən 3.520,7 min manatı rayonun yerli gəlirlərinə, 12,0 min manatı qanunamüvafiq qaydada "Avtomobil yolları" Məqsədli Büdcə Fonduna, 4.128,1 min manatı isə mərkəzləşdirilmiş gəlirlərə aid edilmişdir.

Rayonun yerli xərcləri icra hakimiyyəti orqanlarının saxlanması xərcləri üzrə 1,4 min manat, elm xərcləri (arxiv) üzrə 0,2 min manat, səhiyyə xərcləri üzrə 77,6 min manat çox, məktəbəqədər təhsil xərcləri üzrə 9,0 min manat, mənzil təsərrüfatı xərcləri üzrə 38,9 min manat, kommunal təsərrüfatı xərcləri üzrə 200,6 min manat, sair xərcləri üzrə 49,6 min manat az olmaqla, ümumilikdə 6 ay ərzində 218,9 min manat təyinatdan az icra olunmuşdur.

Xərclərin təyinatdan az icra olunmasının səbəbi isə əmək haqqı və ona üstəlik xərc maddələrində qənaətin yaranması (yerli icra hakimiyyəti orqanları və səhiyyə bölməsi üzrə bəzi ştat vahidlərinin vakant olması ilə bağlı) və bəzi xərclər üzrə faktiki icranın olmadığı (elektrik enerjisi, qaz, su və s.) üçün vasaitin ödənilməməsi olmuşdur.

Yerli büdcənin hesabında və təşkilatların ayrı-ayrı xərc maddələri üzrə limit qalığında 1 iyul 2018-ci il tarixə 689,4 min manat vəsait qalığı yaranmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Yarım il ərzində bütün növ istehlakçı qruplar tərəfindən 57.717,8 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 4.824,2 min manata qarşı 4.189,5 min manat vəsait toplanaraq yığım planı 86,8 % yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 52,5 %, dövlət müəssisələri üzrə 73,9 %, ticarət xidməti üzrə 91,3 %, özəl sənaye üzrə 87,6 %, əhali qrupu üzrə isə 90,0 % olmuşdur.

10 kV-luq hava xəttinin 10,0 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. Bum, Vəndam, Mıxlıqovaq elektrik verilişi xətlərində 56 ədəd fiziki köhnəlmiş ağac dirək metal dirəklərlə əvəzlənmiş, 8.620 metr məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. 5 ədəd 10/0,4 kV-luq transformator yarımstansiyalarında 4 ədəd 400 A-lik, 1 ədəd 250 A-lik ayrıcı quraşdırılmışdır. Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin xidməti ərazisində 45,6 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş və istismara yararsız naqillər ÖDİN (özünü daşıyan izolyasiyalı) naqillərlə əvəz edilmiş, 1.274 ədəd fiziki köhnəlmiş 0,4 kV-luq ağac dirəklər yeni müasir tipli dəmir beton və dəmir dirəklərlə əvəz edilmiş, 46 ədəd transformator yarımstansiyasının qoruq zonası alaq otları və yabanı kollardan, 18,0 km məsafədə 0,4 kV-luq hava xəttinin ətrafı isə ağac kütlələrindən təmizləmişdir. 12 ədəd transformator yarımstansiyasının 0,4 kV-luq çıxışında zədəli kabellər yenisi ilə əvəz edilmişdir.

Təbii qaz istehlakçıları tərəfindən 23.724,1 min kub/metr təbii qaz istehlak edilmiş, 3.239,9 min manata qarşı 3.234,5 min manat vəsait toplanaraq ümumi yığım məbləği 99,8 % icra olmuşdur. Həmin göstərici əhali sektoru üzrə 107,2 %, büdcə təşkilatları üzrə 73,1 %, sənaye, kommersiya və digər təşkilatlar üzrə 100,1 %, kommunal təşkilatlar üzrə isə 23,1 % təşkil etmişdir.

207 yeni abonentə təbii qaz

(Ardı 5-ci səhifədə).